# Ləyaqətlə yerinə yetirilən VARİSLİK MİSSİYASI

**Ulu öndər Heydər Əliyevin dəfələrlə qeyd etdiyi kimi, bugünkü qüdrətli Azərbaycan dövləti ötən əsrin əvvəllərində yaradılmış və cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və biz həmin varislik missiyasını bilavasitə ilk demokratik dövlətimizin adına layiq yerinə yetiririk. 1993-cü ilin yayından etibarən Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə keçirilən bütün tədbirlərdə həmin məsələ dönə-dönə dilə gətirilir.**



*Bu gün biz xoşbəxtik ki, müstəqil ölkə kimi, azad xalq kimi yaşayırıq, taleyimiz öz əlimizdədir. Müstəqilliyimizin qorunması, möhkəmlənməsi ən vacib məsələlərdən biridir. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik, həyata keçirdik. Əminəm ki, müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq!*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə vurğulayıb ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Çünki ilk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdı: "Biz haqlı olaraq fəxr edirik ki, məhz Azərbaycan xalqı müsəlman aləmində ilk demokratik respublikanın yaradılmasının müəllifi olmuşdur."

Xatırladaq ki, Xalq Cümhuriyyətinin ömrü uzun olmasa da, cəmi 23 ay ərzində çox böyük işlər görə bilmişdir. Dövlət bayrağı, Azərbaycan vətəndaşlığı təsis edilmiş, Milli Ordu yaradılmış və Qafqaz İslam Ordusu ilə birlikdə Bakını işğalçılardan azad etmişdir. Eləcə də maarifçiliyin ən böyük göstəricisi olan Bakı Dövlət Universiteti yaradılmışdır...

Bütün bunların hamısı qürur doğuran faktlardır. Ancaq bir jurnalist kimi iki aydır ki, Prezident İlham Əliyevin həmin dövr barədə söylədiyi bir fikri unuda bilmirəm. Cənab Prezident bu il mayın 27-də "Buta" Sarayında 28 May – Respublika Günü münasibətilə keçirilən qəbuldakı nitqində xüsusi olaraq vurğulamışdır ki, "Azərbaycan Xalq Cümhuriyyətinin dövründə Azərbaycan vətəndaşlığı təsis edilmişdir." Bu ifadənin yükünün miqyasını təsəvvür etməmək mümkün deyil. Çünki xalqımız nə qədər qədim tarixə malik olsa da, ölkə vətəndaşı statusu heç zaman bu şəkildə konkretləşdirilməmişdi. Biz həmin tarixə qədər – təxminən yüz il Çar Rusiyasının vətəndaşı olmuşuq. Yəni AXC digər dəyərlər və nemətlərlə yanaşı, bizə Azərbaycan dövlətinin vətəndaşı statusunu da bəxş etmişdir və bu, çox böyük hadisədir.

Bu gün hər bir azərbaycanlı fəxr edir ki, müasir dövlətimizin qurucusu və xilaskarı olmuş ulu öndər Heydər Əliyev də, Prezident İlham Əliyev də AXC irsinə böyük hörmət və ehtiramla yanaşırlar. Dövlət başçımızın hər il may ayının son günlərində Respublika Günü münasibətilə keçirilən təntənəli qəbul və mərasimlərdən əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət etməsi də məhz həmin ehtiramın göstəricisidir.

Prezident bu qəbildən olan sonuncu rəsmi qəbulda xüsusi olaraq qeyd etdi ki, Azərbaycan dövləti və xalqı Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsini əziz tutur. Onların xatirəsi bizim qəlbimizdə yaşayır: "Bir neçə il bundan əvvəl mənim sərəncamımla Bakı şəhərinin mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Keçən il isə ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilmişdir".

Ulu öndər Heydər Əliyev demişdir ki, azadlığı əldə etməkdən onu qoruyub saxlamaq daha çətindir. Həmin həqiqəti birinci müstəqil dövlətimizin iyirmi üç aydan sonra süqut etməsi faktı da sübut etmişdir. Amma zaman gəldi, biz AXC-nin 1918-ci ildə qaldırdığı bayrağı yenidən bərpa etdik. Bayrağımız bu dəfə Tbilisidə, Gəncədə və ya Bakıda deyil, Naxçıvanda qaldırıldı. İlk dövlətimizin süqutundan 72 il sonra ilk dəfə olaraq rəsmi qaydada bu bayrağı ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında rəsmi dövlət bayrağı kimi qaldırdı və təsis etdirdi. Prezident İlham Əliyevin fikrincə, əslində, müstəqilliyə gedən yol bu tarixi andan başlamışdır: "Sovet İttifaqı hələ yaşayırdı və belə cəsarətli addım ulu öndərin öz xalqına, öz dövlətinə, xalqının, dövlətinin gələcəyinə nə qədər bağlı olduğunu, nə qədər böyük önəm verdiyini göstərir".

İkinci dəfə qovuşduğumuz müstəqil Azərbaycan dövləti də Azərbaycan Xalq Cümhuriyyətinin taleyini yaşamaq təhlükəsi ilə üz-üzə idi. Ancaq bu dəfə bəxtimiz gətirmişdi ki, xalqın önündə gedəcək lider var idi. Belə ki, ulu öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi, siyasi hakimiyyətə qayıdışı bizi çox böyük bəlalardan xilas etdi.

Prezident İlham Əliyev bu barədə deyir: "1993-cü il müasir tariximizdə dönüş nöqtəsi idi. Məhz 1993-cü ildən sonra Azərbaycan inkişaf yoluna qədəm qoydu, Azərbaycanda sabitlik təmin edildi və ölkə inamla irəliyə getməyə başladı. Ulu öndər Heydər Əliyevin xalq, dövlət qarşısında misilsiz xidmətləri vardır. Onu da bildirməliyəm ki, 1993-cü ilə qədər müstəqilliyimiz formal xarakter daşıyırdı, ölkəmiz müstəqil siyasət apara bilmirdi. Heydər Əliyevin xalq qarşısında xidmətlərindən biri də o idi ki, Azərbaycan əsl müstəqillik yoluna qədəm qoydu".

Məhz o illərdə Azərbaycanın strateji inkişaf istiqamətləri müəyyən edildi. Bu gün Azərbaycan həmin strateji inkişaf istiqamətlərini əsas tutaraq, bölgədə, dünyada dəyişən vəziyyətə uyğun öz inamlı siyasətini aparır. Bu gün ölkəmiz milli maraqların təmin olunmasında çox böyük addımlar atır, çox böyük uğurlar qazanır. 2003-cü ildən bu günə qədər Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşdirilir.

Müstəqilliyin ilk illərində ayrı-ayrı şəxslərə və ya siyasi qüvvələrə xidmət edən, pərakəndə vəziyyətə düşmüş, fərariliyin baş alıb getdiyi Azərbaycan Ordusunun bugünkü vəziyyəti barədə fəxrlə danışa bilirik. Ölkəmizin hərbi qüdrəti güclənir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi, Naxçıvan Muxtar Respublikasında keçirilən əməliyyat nəticəsində böyük torpaq sahəsi işğalçılardan azad edilmişdir. Hərbi qüdrətimizin artırılması nəticəsində bu gün Azərbaycan Ordusu beynəlxalq reytinqlərdə güclü ordular sırasındadır. Bu isə müharibə şəraitində yaşayan ölkə üçün çox vacib bir faktordur.

Bugünkü Azərbaycan həqiqətləri barədə danışan yerli və əcnəbi ekspertlərin hamısı ilk növbədə həyata keçirilən sosial siyasətin əhatəliliyindən söz açır. Çünki bu sahə hər bir ölkə üçün prioritet olmalıdır, o cümlədən bizim üçün. Dövlət başçımız xatırladır: "Baxmayaraq ki, son illər ərzində dəfələrlə maaşlar və pensiyalar artırılıb, biz bundan sonra da bu istiqamətdə addımlar atacağıq. Bu yaxınlarda çox böyük sosial paket qəbul edildi. Bu islahatların anonsu keçənilki prezident seçkilərindən sonra verilmişdir. Bu ilin əvvəlindən çox ciddi sosial təşəbbüs icra edilməyə başlamışdır. Qəbul edilmiş qərarlar üç milyon insanı əhatə edir və bu vətəndaşların maddi vəziyyəti yaxşılaşır".

Fikrimizcə, Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları da məhz Azərbaycan vətəndaşlarının daha azad, firavan, daha yaxşı yaşamasını əsas məqsəd kimi qarşıya qoymuşdular. Yəni bugünkü Azərbaycanda AXC qurucularının arzu və istəkləri yüksək səviyyədə günün reallığına çevrilir. Elə Prezident İlham Əliyevin ötən il yanvarın 10-da imzaladığı 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi haqqında sərəncamı da həmin reallıqların tərkib hissələrindən idi. Sənəddə qeyd edilirdi ki, 1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş vermiş, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır.

Yeri gəlmişkən, son günlər AXC irsinə sədaqət göstərilməsi istiqamətində atılmış daha bir mükəmməl və qürurverici addımın da şahidi olduq. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə təsis edilmiş "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunanlar arasında Məhəmməd Əmin Rəsulzadənin varisi Rəis Rəsulzadə , eləcə də AXC qurucularının varislərindən Leyla Abasquliyeva, Xurşud Abdullayeva, Solmaz Şıxlinskaya da var idi. Həmin medalları öz sahibinə təqdim edən Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov xüsusi olaraq vurğuladı ki, bu addım Prezident İlham Əliyevin şanlı keçmişimizə, dövlətçilik tariximizə verdiyi yüksək dəyərin göstəricisidir.

**İttifaq MİRZƏBƏYLİ,**
**"Xalq qəzeti"**